UOT 94(479.24)

TALEH CƏFƏROV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının
dosent əvəzi, tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (Humanitar fakültələr üzrə)
kafedrasının elmlər doktoru proqramı üzrə qiyabi doktorantı
https://orcid.org/0009-0005-4833-0679
talehceferov697@gmail.com

QƏRBİ AVROPA ÖLKƏLƏRİNDƏ AZƏRBAYCAN DİASPORUNUN YARANMASI VƏ İNKİŞAFI TARİXİNDƏN

DOI: https://doi.org/10.36719/2708-065X/112/53-60

Azərbaycan diasporunun effektiv fəaliyyət göstərdiyi və təşkilatlandiyi mühüm regionlardan biri Qərbi Avropa regionudur. Bunun başlıca səbəbi burada demokratik mühütün yüksək olması, söz və mətbuat azadlığına heç bir məhdudiyyətin qoyulmamasıdır. Buna əsas götürən Azərbaycan diasporu həmin ölkələrin siyasi qurumları ilə əlaqələrini genişləndirir, qanunverici orqanlarda fəaliyyətini genişləndirir, lobbiçilik institunu təkmilləşdirir, özünün haqq səsinin eşidilməsi üçün güclü lobbistlərlə əməkdaşlığı dərinləşdirir. Məhz bunun nəticəsidir ki, Avropada Azərbaycanın haqq mübarizəsinə Avropadan dəstək xarakterli çıxışlar gəlməkdədir. Azərbaycan diasporu Avropadakı türk diasporunun gücündən güc almaqdadır. İki qardaş diaspor təşkilatları gücünü birləşdirərək Avropanın siyasi məkanında vahid güc kimi iştirak edirlər.

Açar sözlər: Qərbi Avropa ölkələri, Azərbaycan diasporu, icma, Azərbaycan lobbisi.

Giriş. Xaricdə yaşayan həmvətənlərimizin ictimai-siyasi, ideoloji, mədəni sahələrdə qazandığı uğurlar diasporla birbaşa bağlıdır. Qərbi Avropa ölkələrində Azərbaycan diasporunun təşəkkülü və formalaşması XX əsrin II yarısından sonrakı dövrə təsadüf edir. Lakin o dövrə qədər soydaşlarımızı birləşdirən hər hansı bir icma və birliklərə rast gəlinməmişdir. Buna səbəb o zaman Qərbi Avropa ölkələrində azərbaycanlıları birləşdirəcək mexanizmin olmaması, sosial təbəqələr arasında fikir müxtəlifliyinin olması və digər amillər idi. Mövcud problemlərin aradan qaldırılmasına çalışan soydaşlarımız müxtəlif məzmunlu ideoloji, siyasi və mədəni tədbirlərə əl atır, azərbaycanlıların potensial gücə çevrilməsinə səy göstərirdilər.

Ötən əsrin 50-ci illərində dünyanın ikinci iqtisadi güc mərkəzinə çevrilməkdə olan Qərbi Avropanın sürətli inkişafı azərbaycanlıların miqrasiyasına təkan vermiş, yeni köç dalğasına gətirib çıxarmışdır. Əsasən Cənubi Azərbaycandan nizamsız və pərakəndə şəkildə Qərbi Avropa ölkələrinə səpələnən azərbaycanlıların əksəriyyəti müxtəlif səbəblərdən qapalı və gizli həyat tərzi keçirirdilər. Uzun müddət belə bir məhdud şəraitdə yaşayan diaspor nümayəndələri Vətənlə əlaqələr qurmağa can atır, qəti addımlar atmağa çalışırdılar.

XIX əsrin sonunadək Azərbaycandan xaricə müxtəlif vaxtlarda azsayda mühacirət halları qeydə alınsa da, proses XX əsrin əvvəllərindən daha geniş vüsət almağa başladı. Bəhs olunan dövrdə Qafqazda çar Rusiyasının aparmış olduğu antimüsəlman və antitürk siyasəti məqsədli şəkildə regionda azərbaycanlı əhalinin üstün mövqeyinin zəiflədilməsinə yönəlmişdi. 1905-1906, 1918-ci illərdə azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilən soyqırımı, etnik təmizləmə siyasəti də bu məqsədə xidmət edirdi [6, s.48]. Xüsusilə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra mühacirət dalğasının miqyası xeyli azalmış, səngimişdi. Cümhuriyyət xadimlərinin bolşeviklər tərəfindən təqibindən sonra onların əksəriyyəti xaricə mühacirət etmək məcburiyyətində qaldılar. Mühacirətin bu mərhələsi daha çox kütləviliyi ilə seçilirdi. Müxtəlif səbəblərdən (siyasi təqib, sürgün, terror və s.) Azərbaycanı tərk edib Avropaya üz tutan soydaşlarımız təşkilatlanmağa çalışır, daha güclü və mütəşəkkil qüvvəyə çevrilirdilər. Onların arasında elmi biliyi, siyasi və mədəni səviyyəsi yüksək olan ziyalı həmvətənlərimiz də az deyildi [9, s.24].

Bolşeviklərin təqiblərindən qurtulub xarici ölkələrə mühacirət edənlərdən Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Nağı bəy Şeyxzamanlı, Cahangir Kazımbəyli, Səid Əlizadə, Ceyhun Hacıbəyli və bir çox başqa tanınmış simalar qürbətdə Azərbaycan diasporunun təşkilatlanması prosesinin əsasını qoydular [1, s.23].

Mürəkkəb və ziddiyyətli bir dövrdə yaşamalarına baxmayaraq həmin vətənpərvər soydaşlarımız mühacirət etdikləri ölkələrdə dinc həyat sürməklə kifayətlənmirdilər. Onlar daim doğma Azərbaycanla maraqlanır, onun milli istiqlalına nail olmaq üçün gecə-gündüz çalışırdılar. Mühacirlərimiz öz məqsədlərinə çatmaq üçün ayrı-ayrı ölkələrdə ictimai-siyasi, mədəni təşkilat və cəmiyyətlər yaradırdılar. Lakin bütün cidd-cəhdlərə baxmayaraq, keçən əsrin 20-30-cu illərində Azərbaycan mühacirləri vahid qurum ətrafında birləşə bilmirdilər. Təəssüf doğuran hal odur ki, bu proses siyasi mühacirlər arasında da ləng gedirdi. Həmin illərdə xarici ölkələrdə yaşayan azərbaycanlıların əksəriyyətini təşkil edən siyasi mühacirlərin bu məsələ ilə bağlı fəaliyyəti lazımi səviyyədə deyildi. Bu illərdə Avropada Azərbaycan mühacirlərinin "Azərbaycan İstiqlal Komitəsi (1924), Türkiyədə gizli "Azərbaycan Milli Mərkəzi" (1924), "Azərbaycan Gənclər Birliyi" (1924) və sairə kimi təşkilat və siyasi partiyalar fəaliyyət göstərməsinə baxmayaraq hələ də istənilən nəticə əldə olunmurdu. Halbuki Azərbaycan mühacirlərinin vahid mərkəzdə birləşməsi ideyasının reallaşması üçün M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, M.B.Məmmədzadə və başqa onlarla nüfuzlu soydaşımız da əllərindən gələni əsirgəmirdilər [9, s.24-25].

Avropada Azərbaycan diasporunun təşkilatlanmasının aktiv mərhələsi XX əsrin ortalarına təsadüf edir. Lakin o dövrə qədər soydaşlarımızı birləşdirən hər hansı bir icma və birliklərə rast gəlinməmişdir. Buna səbəb o zaman Qərbi Avropa ölkələrində azərbaycanlıları birləşdirəcək mexanizmin olmaması, sosial təbəqələr arasında fikir müxtəlifliyinin olması və digər amillər idi. Mövcud problemlərin aradan qaldırılmasına çalışan soydaşlarımız müxtəlif məzmunlu ideoloji, siyasi və mədəni tədbirlərə əl atır, azərbaycanlıların potensial gücə çevrilməsinə səy göstərirdilər.

Qeyd edək ki, 1949-cu ilin fevralın 1-də Ankara şəhərində "Azərbaycan Kültür Dərnəyi" təsis edildi və bu, Azərbaycan diasporunun təşkilatlanması sahəsində ilk addım oldu. Ardından, 1956-cı ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Təhlükəsizlik naziri işləmiş Nağı bəy Şeyxzamanlının oğlu Saleh bəy Şeyxzamanlı ABŞ-də "Amerikanın Azərbaycan cəmiyyəti"ni təsis etdi [7]. Beləcə, təsis edilmiş bu təşkilatlar artıq XX əsrin ortalarından Azərbaycan diasporunun təşkilatlandığını deməyə əsas verir.

II Dünya müharibəsinin başa çatması ilə azərbaycanlıların mühacirət dalğasının növbəti mərhələsi başladı. Yeni mühacirlərin sosial tərkibi, əsasən, müharibə zamanı əsir düşən və müxtəlif səbəblərdən Avropada məskunlaşan həmvətənlərdən ibarət idi. Soyuq müharibənin başlanması ilə Sovet hökumətinin sərhədlə bağlı tətbiq etdiyi sərt rejim nəticəsində əhalinin xaricə axınının qarşısı bu və ya digər formada alınmış, nəticədə dissident hərəkatı genişlənmişdir.

Ötən əsrin 50-ci illərində dünyanın ikinci iqtisadi güc mərkəzinə çevrilməkdə olan Qərbi Avropanın sürətli inkişafı azərbaycanlıların miqrasiyasına təkan vermiş, yeni köç dalğasına gətirib çıxarmışdır. Əsasən Cənubi Azərbaycandan nizamsız və pərakəndə şəkildə Qərbi Avropa ölkələrinə səpələnən azərbaycanlıların əksəriyyəti müxtəlif səbəblərdən qapalı və gizli həyat tərzi keçirirdilər. Uzun müddət belə bir məhdud şəraitdə yaşayan diaspor nümayəndələri Vətənlə əlaqələr qurmağa can atır, qəti addımlar atmağa çalışırdılar.

1989-cu ilin dekabrın 31-də Azərbaycan xalqı İranla sərhəd dirəklərini sökməsi ilə etiraz səsini ucaltmış və dünyadakı həmvətənlərimizlə həmrəy olduqlarını nümayiş etdirmişdilər. Düzdür, bundan sonra Mərkəzin Azərbaycanı cəzalandırmaq cəhdləri Qanlı 20 Yanvar faciəsi ilə nəticələnmiş, xalqımız bu ağır imtahandan üzüağ çıxmağı bacarmışdır. 20 Yanvar faciəsi dünyadakı azərbaycanlıları tutduğu mövqeyindən asılı olmayaraq bir yumruq kimi birləşdirdi. Məhz bundan sonra dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində məqsədyönlü addımlar atıldı. Belə ki, 1991-ci ilin dekabrın 16-da Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarını bir bayraq altında birləşdirməyin zəruriliyini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bundan sonra Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 31 dekabr - Dünya Azərbaycanlıların Həmrəylik Günü kimi təsdiqləndi [8, s.11].

SSRİ-nin dağılması nəticəsində Azərbaycanın müstəqilliyinə qovuşması ilə Qərbi Avropadakı Azərbaycan diasporu yeni bir mərhələyə qədəm qoydu. Xüsusilə, Qərbi Avropanın qabaqcıl ölkələrin-

də -Böyük Britaniya, Fransa və Almaniyada yaşamağa üstünlük verən soydaşlarımız daha mütəşəkkil, konkret proqram və ümummilli maraqları əsas tutaraq təşkilatlanırdılar.

Bu dövrdə xaricdə yaşayan azərbaycanlıların sayca azlığı, onların əksəriyyətinin isə İran İslam Respublikasından, yəni Cənubi Azərbaycandan köçmələr olmasından asılı olmayaraq Şimali Azərbaycanda baş verənlərə, erməni işğalçı siyasətinə etirazlar Avropa dövlətlərinin hadisələrə laqeydliyinə ciddi xəbərdarlıq idi. Məhz bu dövrdə Azərbaycana rəhbərlikdə səriştəsizlik, ictimai-siyasi sabitliyin pozulması, iqtisadi tənəzzül, Ermənistanın hərbi təcavüzü və digər problemlərin təsiri altında xarici ölkələrə başlanan miqrasiya bir tərəfdən respublikanın elmi-intellektual potensialının xarici ölkələrə getməsinə, "zəka axını" deyilən problemin yaranmasına səbəb olur, digər tərəfdən isə Azərbaycanın xaricdə yeni və effektiv dayağının - diasporun formalaşmasına təkan verirdi [13, s.4].

Dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə Azərbaycan diasporuna dövlət qayğısının gücləndirilməsi nəticəsində diasporun coğrafiyası genişlənmiş, daha aktiv fəaliyyət sahəsinə keçilmişdir. Xüsusilə, Qərbi Avropanın iqtisadi cəhətdən inkişaf etmiş və siyasi baxımdan sabit ölkələrinə üz tutan soydaşlarımız burada milli birliyi qorumağa, yaşadıqları cəmiyyyətə sürətlə inteqrasiya olunmağa və həmin dövlətlərin siyasi həyatında fəal iştiraka çalışırdılar. Bütün bunlar Azərbaycan diasporuna olan ümidləri artırmaqla yanaşı, ona olan etimadın, bir növ, təzahürü idi.

Bu gün Qərbi Avropa ölkələri içərisində diaspor azərbaycanlıları daha çox Almaniya, Fransa, Böyük Britaniya, Hollandiya, Belçika və Lüksenburq ölkələrində yaşamaqdadırlar. Qeyd edək ki, Hollandiya, Belçika və Almaniyada məskunlaşan soydaşlarımızın əksəriyyətini Türkiyə azərbaycanlıları təşkil edir. Böyük Britaniya və Fransadakı soydaşlarımızın çox hissəsi cənubi azərbaycanlılardan ibarətdir [14, c.56]. Bu ölkələrdə məskunlaşan soydaşlarımız ictimai-siyasi proseslərə təsir baxımından digər etnik diasporlardan seçilir.

Qərbi Avropa ölkələrində Azərbaycan diasporunun ən çox maraq göstərdiyi, dəstəyinə ehtiyac duyduğu, beynəlxalq himayəsinə sığındığı ölkələrdən biri də Almaniyadır. Avropanın iqtisadi cəhətdən ən zəngin, yüksək həyat tərzinə malik bir ölkəsinə çevrilmiş Almaniya Azərbaycan diasporu üçün hər zaman cəlbedici bir məkan olmuşdur. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti qurulandan az sonra 50 nəfər tələbə Frayberq Dağ-Mədən Akademiyası, Münhen, Dertştad, Laypsiq, Rena, Hamburq universitetlərində təhsil almağa göndərilmişdir [10, s.34].

Almaniyada Azərbaycan diasporunun ilk rüşeymləri II Dünya müharibəsi illərində yaranmağa başladı. O zaman Sovetlər Birliyinə qarşı mübarizədə alman ordusunun tərkibində fəaliyyət göstərən Azərbaycan legionerlərinin əksəriyyətini bu ölkədə məskunlaşmış soydaşlarımız təşkil edirdi. 1943-cü ildə Ə.F.Düdənginskinin təşəbbüsü ilə Berlin şəhərində Milli Azərbaycan Qurultayı keçirilmişdi. Qurultay Almaniyada fəaliyyət göstərən Azərbaycan dərnəklərinin vahid orqanının yaradılması işində mühüm rol oynadı. 1943-cü ildə isə Berlində M.Ə.Rəsulzadənin rəhbərliyi altında "Milli Azərbaycan Komitəsi" yaradıldı. Üçrəngli milli Azərbaycan bayrağı altında keçirilən Qurultayın 5 maddədən ibarət olan qərarlarına; Azərbaycan Xalq Cümhuriyyətinin uğurları - fəaliyyət dövrü, alman-Azərbaycan dostluğu və türkdilli diasporla mehriban əlaqələr qurulmasından bəhs edən müddəalar daxil idi. Bu tarixdə Berlin şəhərində "Azərbaycan parlamenti" və hökuməti, alman rəhbərliyi tərəfindən rəsmən tanınan "Mühacir Azərbaycan hökuməti" yaradılmışdı [11, s.39]. Qeyd edək ki, Ə.F.Düdənginskinin rəhbərlik etdiyi "Mühacir Azərbaycan hökuməti" uzun müddət yaşaya bilmədi və 1944-cü ildə dağıldı [12, s.324].

Almaniyadakı Azərbaycan icmasının fəalları diaspor fəaliyyətində fəallıq nümayiş etdirir, müxtəlif səpkili konfranslar və simpoziumlar keçirirdilər. Onlar 1952-ci il sentyabrın 12-dən 19-dək Almaniyanın Ştranberq və Mühhen şəhərlərində keçirilən konfransda iştirak etdilər. Konfransın gedişində İtaliya, Fransa, Almaniya, İran, Türkiyə və Avstriyadan gələn soydaşlarımız burada "Azərbaycan Milli Məclisi", "Milli Birlik" adlandırılan qurumda birləşərək birgə fəaliyyət göstərmək barədə qərar qəbul etdilər [12, s.324].

XX əsrin 60-cı illərində Azərbaycanlıların Almaniyaya miqrasiyasının yeni mərhələsi başlandı. Bu dövrdə Almaniyada işçi qüvvəsinin çatışmaması kimi ciddi bir problem meydana çıxmışdı. 1961-ci ildə Qərbi Almaniya (AFR) hökuməti ilə Türkiyə arasında türk miqrantlarının qəbul edilməsi ilə bağlı xüsusi müqavilə imzalanmışdır. 1974-cü ildə isə artıq Almaniyada çalışan türklərin ailələrinin də bu ölkəyə buraxılması barədə qərar qəbul olundu. İndi Almaniyada yaşayan türklərin sayının 3

milyon nəfərə yaxın olduğu bildirilir. Onların 500 min nəfərdən çoxu (bəzi mənbələrdə bir milyon nəfəri) Almaniya vətəndaşıdır. Onların içərisində əslən azərbaycanlılar olsa da, sayı barədə dəqiq məlumat yoxdur. Qeyd edək ki, Almaniyadakı "Mayns Azərbaycanlıları Cəmiyyəti", "Azərbaycanlıların Akademik Birliyi" və digər təşkilatlar məhz Türkiyədən köçmüş azərbaycanlılar tərəfindən yaradılmışdır [13, s.29-30].

Ötən əsrin 70-80-ci illəri Almaniyadakı mövcud Azərbaycan diaspor təşkilatlarının təşkilatlanması və yeni ictimai birliklərin yaranması baxımından əlamətdardır. Bu baxımdan 1988-ci ildə Berlin şəhərində təsis edilmiş "Azərbaycan-Almaniya cəmiyyəti", "Azərbaycan evi", Maqdeburq şəhərində yaradılmış "Azərbaycanın dostları" cəmiyyəti də milli birliyin möhkəmləndirilməsində mühüm rol oynamışdır.

Müasir dövrdə 200 min azərbaycanlının məskunlaşdığı bu ölkə digər Avropa dövlətlərindəki diasporlarımızla koordinasiyalaşdırılmış fəaliyyətin əlaqələndirici mərkəzi kimi çıxış etmək imkanına malikdir. Azərbaycanın siyasi maraqlarının müdafiəsinə milli mədəniyyətin təbliğinə həsr olunmuş tədbirlərdə vacib olan kütləviliyi təmin etmək baxımından da Almaniyadakı diaspor geniş imkana malikdir [13, s.41].

Hazırkı dövrdə Qərbi Avropadakı Azərbaycan icmalarının koordinasiyalı şəkildə fəaliyyəti Azərbaycan diasporu qarşısında duran əsas məqsədlərdən biridir. Qeyd edək ki, Avropadakı Azərbaycan icmaları Avropa Azərbaycanlıları Konqresində (AAK) birləşmişdir. 2005-ci ilin aprelində AAK rəhbərliyi Avropa Azərbaycanlıları Konqresinin fəaliyyət planı, iş prinsipi, stretegiyası, qarşıda duran hədəfləri və icmalararası əlaqələrin səviyyəsini öyrənmək məqsədilə Almaniyadakı icma rəhbərlərinin sədrləri ilə görüş keçirilmiş, mövcud problemləri araşdırmaq və türk icmaları ilə əməkdaşlığın gələcək perspektivlərini müəyyən etmək məqsədilə müzakirələr keçirilmişdir. Müzakirələr nəticəsində təşkilatda struktur dəyişikliyinin aparılması barədə qərar qəbul edilmiş, təkliflər paketi hazırlanmışdır. Bununla yanaşı, erməni diasporu və lobbisinin Azərbaycan və türk dünyası əleyhinə apardığı çirkin kampaniyanın ifşası istiqamətində görüləcək işlər müzakirə edilmişdir.

Almaniyadakı Azərbaycan diasporuna bağlı yaranmış yeni icma, cəmiyyət və ictimai birliklərin başlıca məqsədi Azərbaycan xalqının mədəniyyətini, tarixini, adət-ənənələrini yaşadaraq geniş təbliğ etmək, Azərbaycanın bugünkü durumunu, Dağlıq Qarabağ probleminin yaratdığı fəsadlar barədə reallıqları yaşadıqları ölkənin ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Bu istiqamətdə, ilk növbədə, Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyələri, dövlət siyasətinin prinsipləri, müstəqil Azərbaycanın milli maraqları rəhbər tutulmuş, prosesi keyfiyyətcə yeni müstəviyə çıxarmaq məqsədilə ötən illərin təcrübəsindən, habelə diaspor quruculuğu sahəsində nailiyyətləri ilə tanınmış başqa xalqların (türk, yəhudi, yunan) təcrübəsindən faydalanmağa, tarixi və regional faktorlarla yanaşı, mövcud siyasi reallıqları, eyni zamanda icmaların fəaliyyət perspektivlərini nəzərə almağa səy göstərilmişdir [1, s.44].

Bu gün Almaniyada yaşayan azərbaycanlıların sayı barədə dəqiq məlumat əldə etmək mümkün olmasa da, YUNESKO-nun rəsmi məlumatında 300 min nəfərdən çox olduğu bildirilir. Onlardan 14-17 min nəfəri paytaxt Berlin şəhərində yaşamaqdadır. Diaspor üzrə mütəxəssislər Almaniyadakı azərbaycanlıları əsasən 3 qrupa bölürlər:

- Tarixən Şimali Azərbaycanda yaşamış azərbaycanlılar;
- Cənubi Azərbaycanda yaşayan və İran vətəndaşlığı olanlar;
- rusdilii azərbaycanlılar.

Bu qruplar arasında müəyyən məsələlərdə ciddi fərqlər müşahidə edilir. Belə ki, əgər rusdilli Azərbaycan vətəndaşları ilə Cənubi Azərbaycandan gəlmiş soydaşlarımız cəmiyyətə inteqrasiya və təşkilatlanma işində fəallıq nümayiş etdirirlərsə, anadilli soydaşlarımızda bu kimi hallar zəif təsir bağışlayır. Ona görə ki, onlar daha çox qazanc dalınca buraya gəldiklərindən təşkilatlanma və istimai-siyasi işlərdə fəallıq arxa plana keçmiş olur. Diaspor təşkilatlarının işi ondan ibarətdir ki, bu qruplar arasındakı fərqi aradan qaldırmaq məqsədilə onlarla daimi əlaqələr saxlamalı, iş aparmalı, tədbirlər keçirməli və onların alman cəmiyyətinə sürətli inteqrasiyasını təmin etməlidir.

Fikrimizcə, Günay Novruzova Almaniyada məskunlaşmış azərbaycanlıları daha düzgün formada təsnifatlandırmışdır. O, bu ölkədəki azərbaycanlı icmanı aşağıdakı qruplara bölmüşdür:

- İran İslam Respublikasından miqrasiya etmiş azərbaycanlılar;
- Azərbaycan Respublikasından miqrasiya etmiş azərbaycanlılar;

- Tarixin müxtəlif mərhələlərində Türkiyə, Gürcüstan, Rusiya və digər ölkələrdən Almaniyaya miqrasiya etmiş soydaşlarımız [13, s.31].

Almaniyada yaşayan soydaşlarımızın bir hissəsini də yəhudi əsilli azərbaycanlılar təşkil edir. Azərbaycan Respublikasından müxtəlif vaxtlarda Almaniyaya əmək miqrasiyası etmiş həmvətənlərimizin sayı 120-140 min nəfərdir. Onların bir hissəsi yəhudi əsilli azərbaycanlılardır. Həmvətənlərimizin əksəriyyəti orta sosial təbəqəyə aid olsalar da onların içərisində geniş maliyyə imkanlarına malik şəxslər azlıq təşkil edir [15, s.102].

Diasporla İş üzrə Dövlət Komitəsinin son hesabatında Almaniyada yaşayan azərbaycanlıların sayının təqribən 200 min nəfər olduğu qeyd edilir. Onlardan 15 min nəfərin məhz Azərbaycan Respublikasından köçənlər təşkil edir. Azərbaycanlılar əsəsən türklərin məskunlaşdığı böyük şəhərlərdə - Köln, Essen, Frankfurt, Mayns və Berlində yaşayırlar. Almaniyada yaşayan azərbaycanlıların böyük əksəriyyəti burada qeyri-leqal yaşamağa üstünlük verirlər. Hökumət miqrantların daimi və ya müvəqqəti yaşamaları üçün aldıqları icazələri mütəmadi nəzarətdə saxlayır. Məlumat üçün qeyd edək ki, hazırda Almaniyada 30-dan artıq Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərməkdədir.

Azərbaycan diasporunun daha sistemli fəaliyyət göstərən Qərbi Avropa ölkələrindən biri də Fransadır. Fransa ilə münasibətlərimiz XII-XIV əsrlərdən başlasa da, sonrakı əsrlərdə müxtəlif mədəni-siyasi və ticarət əlaqələri inkişaf etmişdir. Orta əsrlərdə bu münasibətlər pərakəndə və qeyri-müntəzəm xarakter daşısa da, XIX əsrin əvvəllərindən hər iki xalqın ziyalı təbəqəsi və siyasətçiləri münasibətləri şüurlu şəkildə inkişaf etdirməyə səy göstərmişlər [1, s.35]. XIX əsrdən təhsil almaq arxasınca bir çox ziyalılarımız Fransaya üz tutmuş, burada nüfuzlu qəzet və jurnallarda maraqlı yazılarla çıxış etmişdilər. Fransaya ilk gələn belə ziyalılarımızdan biri də Əhməd bəy Ağaoğlu olmuşdur. O, 1894-cü ildə Paris şəhərindəki nüfuzlu kolleclərdən birini bitirmiş, Fransa mətbuatında çıxış edən ilk azərbaycanlı kimi tarixə düşmüşdür.

XIX əsrin sonlarında Azərbaycanda maarifçilik hərəkatının güclənməsi, bu sahədə öndə olan simaların əsərlərinin Avropa coğrafiyasına yayılması ilə yadda qalmışdır. Bəhs olunan dövrdə Mirzə Fətəli Axundzadə, Abbasqulu Ağa Bakıxanov və digər maarifçilərin əsərləri Fransanın nüfuzlu mətbuat orqanlarında vaxtaşırı çap olunur, Fransa cəmiyyətini Azərbaycan tarixi, ədəbiyyatı, folkloru ilə tanış edirdilər.

İlkin mərhələ daha çox bir sıra ziyalılarımızın təhsil arxasınca bu ölkəyə üz tutması ilə yadda qalmışdırsa, ikinci mərhələ daha çox Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının, milli burjuaziyanın və bir sıra ziyalıların Fransaya üz tutması ilə xarakterizə olunur. Bunu bir sıra amillərlə əsaslandırmaq olar. Birincisi, AXC-nin müstəqilliyini beynəlxalq səviyyədə ilk tanıyan ölkə Fransa olmuşdur. İkincisi, ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət hökuməti milli kadrların hazırlanmasını sürətləndirmək məqsədilə daha çox müraciət etdiyi və tələbə göndərdiyi ölkələrdən biri də Fransa olmuşdur. Belə ki, hökumətin təklifinə əsasən Azərbaycan parlamenti 100 azərbaycanlı gəncin təhsil almaq məqsədilə dövlət hesabına xarici ölkələrə göndərilməsi barədə qərar qəbul etdi ki, onların da 45 nəfəri Fransa, 23-ü İtaliya, 10-u İngiltərə və 9 nəfəri Türkiyə ali məktəblərinə göndərildi [2, s.34].

İki ölkə arasında siyasi münasibətlər də yüksələn xətlə inkişaf etməkdə idi. Ötən əsrin 20-ci illərinin əvvəllərində AXC-də fəaliyyət göstərən 16 əcnəbi diplomatik nümayəndə heyətindən biri də Fransa idi [3, c.632].

Fransa-Azərbaycan münasibətlərinin zaman-zaman inkişafı bu Avropa ölkəsində soydaşlarımızın sayının artmasına və diaspor fəaliyyətinə mühüm təsir göstərmişdir. Bu dövrdə Fransada yaşayıb Azərbaycan diasporunun formalaşmasında iştirak edən soydaşlarımızdan Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli, Əkbərağa Şeyxülislamov, Timuçin Hacıbəyli, Ağaqasım Qasımzadə, Miryaqub Mirmehdiyev, Ümbülbanü Abdullayeva və digərlərini misal göstərmək olar. 1919-1920-ci illərdə Fransaya getmiş Azərbaycan nümayəndə heyətinin bəzi üzvləri, o cümlədən Əlimərdan bəy Topçubaşov ömürlərinin qalan illərini Fransada yaşamağa məcbur olmuşlar [4, s.172].

1919-cu ildə Versal Sülh Konfransına yola düşən, lakin 1920-ci ilin aprelində Azərbaycanın bolşeviklər tərəfindən işğal olunmasından dönməyən Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti üzvlərinin Fransadakı fəaliyyətindən geniş söhbət açan Ramiz Abutalıbov yazır: "Mən sənədləri nəzərdən keçirərkən Əlimərdan bəy Topçubaşın rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin Ver-

sal Sülh Konfransındakı keyfiyyətli işinin şahidi olarkən heyranlığımı qeyd etməyə bilmərəm. Onlar 1919-cu ilin mayından 1920-cı ilin aprelinə qədər olan dövrdə çox çətin şəraitdə Fransada 3 kitab, 12 bülleten, ölkənin xəritəsini, o cümlədən, kütləvi informasiya vasitələrində çoxsaylı məqalələr çap etdirməyə nail olublar. Doğrusu, bu gün heç də hamımız xaricdə belə məhsuldar işimizlə qürrələnə bilmərik [9, s.11].

İki dövlət arasındakı mövcud əlaqələr II Dünya müharibəsindən sonrakı illərdə yüksələn xətlə inkişaf etməyə başladı. 50-80-ci illərdə Fransaya gedən soydaşlarımızın sayının artması nəticəsində diasporun təşkilatlanmasında mühüm irəliləyişlər nəzərə çarpağa başladı. Nəticədə, XX əsrin 80-ci illərindən etibarən Fransada cəmiyyət və ictimai birliklərin yaradılmasına başlanıldı. Fransada yaradılmış ilk diaspor təşkilatlarımızdan biri də "Azərbaycan Mədəniyyətini və Sivilizasiyasını Öyrənən Mərkəz"dir. 1988-ci ildə Strasburq Humanitar Elmlər Universitetinin bir qrup əməkdaşı tərəfindən yaradılan cəmiyyətin əsas məqsədi Azərbaycan mədəniyyəti, incəsənəti, tarixi və ədəbiyyatının tədqiqindən ibarətdir. Görkəmli alim, prof. İren Məlikoff mərkəzin prezidenti, prof. Lui Bazen və Timuçin Hacıbəyli vitse-prezidentləri seçilmişdilər. Mərkəzin əsas vəzifəsi Azərbaycan haqqında ümumi məlumatlar dərc etmək, Azərbaycan yazıçılarının və şairlərinin əsərlərinin nəşrini təşkil etmək idi. Bununla yanaşı, Mərkəz alimlərin görüşlərini keçirməyi, müxtəlif tədbirlər təşkil etməyi, xüsusi kitabxana, videoteka, fonetika yaratmağı nəzərdə tuturdu. V.Arzumanlı yazır ki, 1989-cu ildə Mərkəz Əhməd Təbrizlinin "Dağlıq Qarabağın tarixi və ona aid sənədlər" kitabını "Dağyeli" nəşriyyatında fransız dilində nəşr etmişdir [4, s.173].

SSRİ dövründə diaspor quruculuğu sahəsinə marağın azlığı, o cümlədən Fransadakı Azərbaycan icmasının Vətənlə birbaşa əlaqəsinin olmaması, həmvətənlərimizin diqqət və qayğıdan kənarda qalması və digər mühüm amillər bu istiqamətdə ciddi problemlərin və nöqsanların ortaya çıxması ilə müşayiət olunurdu. Göründüyü kimi, bu ölkədəki Azərbaycan diasporunun işinin gücləndirilməsi, vahid diaspor təşkilatının yaradılması zəruri məsələlərdəndir.

Azərbaycan diasporunun daha çox inkişaf etdiyi Qərbi Avropa ölkələrindən biri də Böyük Britaniyadır. İki ölkə arasında yaranmış münasibətlərin ilkin mərhələsi XVI əsrə təsadüf edir. Bəhs olunan dövrdə İngiltərə kraliçası Yelizaveta Tüdor Azərbaycan Səfəvilər dövlətinə ekspedisiyalar göndərərək onun ərazisindən sərfəli satış bazarı və ucuz xammal mənbəyi kimi istifadə etmək istəyirdi. Səfəvi dövləti də Böyük Britaniya ilə iqtisadi əlaqələrin qurulmasına daha çox maraq göstərirdi. Bu baxımdan Səfəvi şahı I Təhmasib ingilis tacirlərə bir sıra imtiyazlar da vermişdi [5, s.40].

XVII-XIX əsrlərdə Azərbaycan-Böyük Britaniya münasibətləri daha çox iqtisadi maraqlar üzərində qurulduğundan bu ölkədə yaşamağa can atan soydaşlarımızın sayında müəyyən canlanma olmuşdur. Xüsusilə, Bakı neftinə nəzarətin Azərbaycan hökumətinin əlinə keçməsini öz maraqları üçün məqbul hesab edən Böyük Britaniya AXC-yə diplomatik dəstəyini daha da artırdı. Bundan sonra soydaşlarımızın Britaniyanın müxtəlif şəhərlərinə miqrasiyası daha da sürətləndi. Nəticədə, II Dünya müharibəsindən sonra artıq İngiltərədə Azərbaycan diasporunun formalaşması prosesinin başlandığını qeyd etmək lazımdır.

XX əsrin 50-60-cı illərindən etibarən Günay Azərbaycandan olan soydaşlarımızın Britaniyaya kütləvi mühacirətini qeyd etmək lazımdır. Miqrasiyanın kütləviliyini artıran başlıca səbəb elm və təhsillə bağlı idi. Buraya pənah gətirən yeni nəsil azərbaycanlıların sayı 10 min nəfərdən ibarət idi və onların 20%-i Şotlandiya, İrlandiya və Uelsin ərazisində məskunlaşmışdılar. Məlumat üçün qeyd edək ki, Britaniyada yaşayan soydaşlarımızın əksəriyyəti Güney Azərbaycandan bu ölkəyə mühacirət edənlərdən ibarətdir. Onlar burada kifayət qədər böyük maddi və intellektual imkanlara malikdirlər.

Beləcə, İngiltərədə Azərbaycan diasporunun aktif fəaliyyəti XX əsrin 80-ci illərinə təsadüf edir. Paytaxt London şəhərində diaspor fəaliyyətini aktivləşdirən soydaşlarımız 1988-ci ilin iyulunda "Azərbaycan Komitəsi"ni yaratdılar. Qısa zaman kəsiyində Əsasnaməsi və Nizamnaməsi təsdiqlənən təşkilatın idarə heyəti seçilir və "Aydınlıq" qəzeti nəşr olunmağa başlayır. Qeyd edək ki, qəzet iki dildə -türk və fars dillərində olmaqla bu gün də nəşrini davam etdirir [4, s.137].

Qərbi Avropada azərbaycanlıların kütləvi şəkildə məskunlaşdığı ölkələrdən biri də Avstriyadır. Avstriya-Azərbaycan əlaqələrinin tarixi orta əsrlər dövründən başlasa da, iki ölkə arasındakı ikitərəfli əlaqələrin inkişafı XX əsrə təsadüf edir. Belə ki, I Dünya müharibəsindən sonra Avstriyaya azərbaycanlıların passiv mühacirəti başlayır. Əgər əvvəllər soydaşlarımızın mühacirəti, əsasən, iqtisadi və

sosial səbəblər üzündən baş verirdisə, bolşeviklərin Azərbaycanı işğal etməsindən sonra bu proses siyasi xarakter aldı. Bir çox Avropa ölkələri kimi Avstriya da azərbaycanlı siyasi mühacirləri qəbul etdi [13, s.32].

Avstriyada azərbaycanlıların məskunlaşmasının ikinci mərhələsi II Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Belə ki, müharibə zamanı əsir düşmüş soydaşlarımızın bir qismi burada qalaraq Azərbaycan diasporunun təşəkkülündə yaxından iştirak etdilər.

Qərbi Avropa ölkələrindən olan Belçika da azərbaycanlıların məskunlaşdıqları mühüm ölkələrdən biridir. Belçikanın iri sənayə mərkəzlərində məskunlaşam Azərbaycanın fəal diaspor üzvləri yerli qanunlara tez uyğunlaşır, cəmiyyətə sürətlə inteqrasiya olunururdular. Əsasən iri şəhərlərin xırda və orta sahibkarlıq müəsissələrində sənətkar, tacir, zərgər, mühasib, jurnalist və s. sahələrdə çalışırlar.

Nəticə. XIX əsrin sonlarından Qərbi Avropa ölkələrinə üz tutan azərbaycanlıların bu regiona kütləvi axını XX əsrin I yarısından sonraya təsadüf etdi. Əvvəlki mərhələdə gedən soydaşlarımız arasında pərakəndəlik hökm sürürdüsə, ikinci, üçüncü və dördüncü mərhələdə gedənlər artıq koordinasiyalı şəkildə məskunlaşır, bir-biriləri ilə sistemli şəkildə əlaqə saxlayırdılar. Ən çox Qərbi Avropanın inkişaf etmiş sənaye ölkələrinə gedən soydaşlarımız burada müxtəlif sahələrdə iş tapa bilir, təşkilatlanır, sürətlə həmin cəmiyyətə inteqrasiya olunurdular. Bu gün Benilüks ölkələrində, Almaniyada, Fransada, Avstriyada təşkilatlanmış Azərbaycan icmaları fəaliyyət göstərir. Onların ən böyük üstünlüyü Türkiyə diasporu ilə koordinasiya şəkildə fəaliyyət göstərmələridir. Azərbaycan və Türkiyə dövlətləri isə erməni diasporu və lobbisinə qarşı 2008-ci ildən koordinasiyalı şəkildə fəaliyyət göstərir. Bu isə hər iki diasporun erməni təcavüzünə qarşı effektli mübarizəsinə kömək edir.

ƏDƏBİYYAT

1. Məmmədov R. Azərbaycan diasporu (dərs vəsaiti). Bakı, Zərdabi Nəşr MMC, 2019, 312 s.
2. Məmmədov R. Avropada Azərbaycan diasporu (reallıqlar və perspektivlər). Bakı: Mütərcim, 2013, 312 s.
3. Азербайджанская Демократическая Республика (1918-1920), внешная политика (документы и материалы), Баку, Издательства «Азербайджан», 1998, 632 с.
4. Arzumanlı V. Azərbaycan diasporu (reallıqlar, qayğılar, problemlər). Bakı: Qartal, 2001, 800 s.
5. Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan Nəşriyyatı, 2005, 631 s.
6. Osmanov M. Azərbaycan diasporasının fəaliyyəti: mövcud vəziyyət və perspektivlər. Tarix və onun problemləri, 2022, №4, s.48-52.
7. Azərbaycan diasporu haqqında ümumi məlumat. - https://azerbaijan.az /related-information /205 [20.10.2021].
8. Azərbaycan diasporu: ensiklopedik məlumatlar toplusu. Bakı, "Səs-2012" MMC, 2012, 654 s. - https://www.azerbaijans.com/content_494_az.html [20.10.2021].
9. Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış. Bakı, 2005, s.92.
10. Əliyev Z. Diaspor: izahlı sözlük, məlumat kitabı. Bakı: Yurd, 2007, 376 s.
11. Azərbaycan diasporu: tarix və nəzəriyyə. I buraxılış /AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu; red. Y.Mahmudov, elmi red. M.Seyidbəyli. -Bakı, Aspoliqraf LTD, 2005, 92 s.
12. Siyasi tarix. II hissə. Bakı, Azərbaycan ensklopediyası, 1998, 415 s.
13. Novruzova G. Avropa azərbaycanlılarının milli həmrəylik hərəkatında iştirakı (XX əsrin sonu - XXI əsrin əvvəli). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı, 2012.
14. Гусейнова Л.Дж. Национальная меньшинство в странах в странах Центральной и Восточной Европы 1945-2002. Справочник. Баку: Адилоглу, 2003, 80 с.
15. Həziyeva Səbinə. Dünya azərbaycanlılarının həmrəyliyi tarixi (XX əsrin sonu - XXI əsrin əvvəlləri). Bakı: Adiloğlu, 2010, 168 s.

ТАЛЕХ ДЖАФАРОВ
И.о.доцента кафедры Всеобщей истории и технологии преподавания истории АГПУ, доктор философии по истории заочный докторант докторантуры кафедры истории Азербайджана гуманитарного факультета БГУ

ИЗ ИСТОРИИ СОЗДАНИЯ И РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ

Одним из важных регионов, где азербайджанская диаспора эффективно действует и организуется, является Западная Европа. Главная причина этого – высокая демократическая обстановка и отсутствие каких-либо ограничений свободы слова и печати. Исходя из этого, азербайджанская диаспора расширяет свои связи с политическими организациями этих стран, активизирует свою деятельность в законодательных органах, совершенствует институт лоббирования и углубляет сотрудничество с влиятельными лоббистами, чтобы ее голос был услышан. Именно благодаря этому из Европы поступают заявления в поддержку борьбы за права азербайджанцев в Европе. Азербайджанская диаспора укрепляется благодаря силе турецкой диаспоры в Европе. Две братские диаспорные организации, объединив свои силы, участвуют как единая сила в политическом пространстве Европы.

Ключевые слова: страны Западной Европы, азербайджанская диаспора, сообщество, азербайджанское лобби.

TALEH JAFAROV
PhD in History, Associate Professor of the Department of General History and History Teaching Technology, ASPU, part-time doctoral student in the Doctor of Science program at the Department of Azerbaijani History (Humanities Faculty) of BSU

FROM THE HISTORY OF THE ESTABLISHMENT AND DEVELOPMENT OF THE AZERBAIJAN DIASPORA

One of the important regions where the Azerbaijani diaspora effectively operates and is organized is the Western European region. The main reason for this is the high democratic environment here, and the absence of any restrictions on freedom of speech and the press. Based on this, the Azerbaijani diaspora expands its relations with the political organizations of those countries, expands its activities in legislative bodies, improves the lobbying institution, and deepens cooperation with powerful lobbyists in order to make its voice heard. It is precisely as a result of this that statements of support for the struggle for the rights of Azerbaijanis in Europe are coming from Europe. The Azerbaijani diaspora is gaining strength from the strength of the Turkish diaspora in Europe. The two fraternal diaspora organizations, combining their strength, participate as a single force in the political space of Europe.

Keywords: Western European countries, Azerbaijani diaspora, community, Azerbaijani lobby.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Şəbnəm Cəfərova, t.ü.f.d. Məmmədağa Baxışov.